Azərbaycan Respublikası

# Naxçıvan milli geyimləri

# Naxçıvan milli geyimləri

Naxçıvan
2010



*“Mədəniyyəti inkişaf etdirmək milli ruhu yaşatmaq deməkdir”.*

**Heydər ƏLİYEV**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
"Naxçıvan Muxtar Respublikasında
Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında"
2009-cu il 07 fevral tarixli Sərəncamına əsasən
nəşr olunur.

Yurdumuzun zəngin təbiəti hələ lap qədimlərdən sənətin bir çox növünün inkişafı üçün əlverişli şərait yaratmışdır. Ulu babalarımız keçmişdə təbiətdə rast gəlinən ən adi şeylərdən: qamışdan, ağacdan, daşdan, gildən, heyvanların sümüyü, dərisi və yunundan məharətlə isitfadə edərək öz həyat və məişəti üçün əhəmiyyət kəsb edən əşyalar düzəltmiş və onlardan istifadə etmişdir. Bu əşyaların üzərində müxtəlif əsrlərə aid bir çox rəsm və ornament ünsürünə rast gəlirik. Əgər bu əşyaların materialı, forması, bir sözlə, icrası bizə müxtəlif dövrlərdə istehsal prosesinin necə təkmilləşməsindən və sairədən xəbər verirsə, onların üzərindəki rəsm və naxışlar uzaq keçmişlərdə əcdadlarımızın adət-ənənəsini, məişətini, dini ayinlərini, bədii-estetik zövqünü, fəlsəfi dünyagörüşünü əks etdirən nadir vasitələrdəndir.

Xalqımızın əməyi sayəsində yaranıb onun həyatını əks etdirən Azərbaycan xalq sənəti əqdim bir tarixə malikdir. Bu sənətin ən zəngin və orijinal örnəklərindən biri də parça istehsalı və geyimlərin tikilməsidir. Dekorativ tətbiqi-sənətinin mühüm bir qolunu təşkil edən bu sənət sahələri ilə əcdadlarımız hələ Tunc

Dövründə məşğul olmağa başlamış, əyirmə, hörmə və arxaik şəkildə olsa da tikmə işləri ilə sənət nümunələri yaratmışlar. Dövrümüzə qədər gəlib çatmış ən qədim parça nümunələri təxminən eramızdan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərinə aiddir. Arxeoloji qazıntılar zamanı tapılmış parça tikələrinin kimyəvi müayinəsi göstərmişdir ki, uzaq keçmişlərdə toxunmasına baxmayaraq bu parçalar çox əlvan rəngli boyalarla boyanmışdır. Rənglər əsas etibarilə bitkilərdən və bəzi böcəklərdən alındığı üçün çox təbii və davamlı olmuşdur. Boya istehsalı üçün ən çox alma, nar, qoz, soğan qabığı, ərik və tut ağacının kökündən istifadə edilmişdir. Qırmızı rəng verən koşenil qurdundan da boya hazırlanmışdır.

X əsrdə yaşamış ərəb müəlliflərindən Müqəddəsi və Məsudi yazırlar ki, Azərbaycan sənətkarları satış üçün yun, pambıq, ipək parça və paltarlar hazırlayırdılar. Gəncədə hazırlanmış yun paltarlar, məşhur Naxçıvan çuxaları Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda şöhrət qazanmışdır. Azərbaycanda olmuş xarici səyyahların gündəliklərindəki qeydlərindən aydın olur ki, XVIII əsrdə Azərbaycan dövlətinin getdikcə zəifləyərək iqtisadiyyatının tənəzzülə uğraması yerli sənətkarlığın inkişafına da mənfi təsir göstərmişdir. Lakin Şamaxı, Təbriz, Naxçıvan, Dərbənd, Bakı, Gəncə, Şəki, Şuşa və s. şəhərlər ticarətdə və sənətkarlıqda öz mövqelərini saxlamaqda davam ediblər. Hələ XVII əsrin əvvəllərində Azərbaycanın bir çox şəhərlərində olmuş məşhur türk səyyahı və diplomatı Övliya Çələbi bu yerlərdə (xüsusən Naxçıvanda) yüksək keyfiyyətli basma parçaların istehsal olunduğunu və satılmaq üçün bəzi xarici ölkələrə göndərildiyini qeyd etmişdir.

Basma naxışlar adətən kətan və ipək parçaların üzərinə vurulur. Bu naxışlar əvvəlcə bərk taxtadan qəlib kimi kəsilər,





*Tuman ətəyi. XIX əsr.*



*Qoz-qazı kəlağayı. XIX əsr.*



*Arxalıq. Kişi üst geyimi. XIX əsr.*



*Küləçə. XIX əsr.*



*Arxalıq. XIX əsr.*



***Çəpkən. XIX əsr.***



*Çəpkən. XIX əsr*



*Ləbbadə. XIX əsr.*



*Çəpkən, ipək tuman. XIX əsr.*

Qəliblərə salınan naxışlar həm nəbati, həm də həndəsi ünsürlərdən ibarət olardı. Ən çox yayılmış nəbati naxışlar bunlar idi: xonça, müxtəlif yarpaq formaları, zanbaq, lalə, qərənfil və s. Nəbati naxışlar adətən parçanın ortasını, həndəsi naxışlar isə haşiyəni bəzəyirdi. İpək parçaların üzərinə vurulan naxışlar isə müxtəlif baş örtüklərində - kəlağayı və yaylıqlarda olurdu. Kətan parçalara da naxışlar vurulurdu. Geniş yayılmış basma parçalar Azərbaycanın başqa şəhərlərində olduğu kimi Naxçıvanda da XX əsrin əvvəllərinə kimi hazırlanırdı. Xalqımız isə lap qədimdən bu parçalardan istifadə edərək öz geyiminə, eləcə də həyat və məişətdə istifadə etdiyi bir çox əşyalara gözəllik verməyə çalışmışdır. Geyim üzərinə, habelə məişət əşyalarından pərdə, örtük, süfrə, balınc, mütəkkə və s. üzərinə salınmış bəzəklər xalq sənətinin ən çox yayılmış növü sayılan tikmə üsulu ilə icra olunmuşdur. Parça və zərif dəridən hazırlanmış müxtəlif əşyalar üzərinə salınan bu tikmələr o qədər zərif və rəngarəngdir ki, bu gün belə öz estetik mahiyyətini itirməmişdir. Müxtəlif dövrlərdə Naxçıvan, Şamaxı, Gəncə, Təbriz, Şuşa və Quba şəhərlərində olmuş əcnəbi səyyahlar tikmələrin yüksək texniki və bədii xüsusiyyətlərinə valeh olduqlarını öz gündəliklərində dəfələrlə qeyd etmişlər. Təkəldüz, saya, güləbətin, pilə, cülmə, muncuqlu, qurama, oturtma icra üsuluna görə ən çox inkişaf edib xalq arasında yayılan sənət növlərindən olmuşdur.

Tədqiqatçıların gəldiyi qənaətə görə maddi mədəniyyətin mühüm elementlərindən biri olan geyimlər Azərbaycanın digər yerlərində olduğu kimi, Naxçıvanda da qədim tarixə malik olmuşdur. Arxeoloji qazıntılar zamanı Azərbaycanın müxtəlif bölgələrindən, o cümlədən, Naxçıvandan tapılmış daş qaşov, sümük, biz və iynə ibtidai insanın dərini ilk formada emal etdiyini və paltarı əvəz edən geyim növləri hazırladığını sübut edir. Etnoqrafların fikrincə, Naxçıvan bölgəsinin Giran şəhərində (Xaraba Giran)

aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilən parça qalığı Naxçıvanın geyim və bəzək əşyalarının Azərbaycan xalqının ənənəvi geyim və bəzəklərinin tərkib hissəsi olduğunu bir daha təsdiqləməklə Naxçıvanın tarixən Azərbaycan ərazisi olması, həm də burada yaşamış ulu əcdadların etnik mənsubiyyətcə eyniliyi ilə izah olunur. XIX əsrin əvvəllərinə aid mənbələrə əsaslanan etnoqraflar Naxçıvanda əhalinin geyiminin fəsillərə uyğunlaşdırılması qənaətinə gəlməklə yanaşı, yayın qızmar istisində ağ rəngli paltarlardan daha çox istifadə etdiyini göstərirlər. Cəmiyyətin sonrakı inkişafı prosesində sosial-iqtisadi amillərin geyimə təsiri güclənmiş, mövsümi geyim növləri meydana gəlmiş, kişi, qadın, qız və gəlin libası, hətta yaşla bağlı geyimlər bir-birindən fərqlənməyə başlamış, gündəlik, bayram (toy) və matəm mərasimi libasları yaranmışdır. Naxçıvanlıların ənənəvi kişi geyim kompleksinin müxtəlif alt paltarları, şalvar, arxalıq, çuxa və s. ibarət olduğu qənaətinə gələn etnoqraflar onu da qeyd edirlər ki, mövsümü geyim növü olan kürk şəhər əhalisində, qismən də dağ və dağətəyi kəndlərdə, yapıncı isə elatlarda (maldarlar) geniş yayılmışdır. İstər baş geyimləri (papaq, börk, təsək, başlıq, örpək, kəlağayı və s.), istərsə də ayaq geyimləri (corab, çarıq, başmaq, çəkmə, patava) əsasən kustar üsulla hazırlanırdı. Kişi geyimləri əsasən aşağıdakılardan ibarətdir: alt paltarı (can köynəyi, tuman, dizlik); üst geyimləri (şalvar, çuxa, arxalıq, əba); baş geyimləri (papaq, araqçın, əmmamə); ayaq geyimləri (ayaqqabı, corablar, sarğılar); kəmərlər (qurşaq, şal, kəmər, toqqa, qayış). Kişi alt geyimləri içərisində can köynəyi geniş yayılmışdı. Pambıqdan tikilmiş can köynəklərindən yaz və payızda istifadə edilirdi. Qış aylarında qalın "bambəz" adlanan parçalardan tikilmiş can köynəkləri geniş istifadə olunurdu. Can köynəklərindən bir qrupu boğazdan kəsilir və sadə yaxa açılırdı. İkinci qrup can köynəklərində də



*Qadın geyim dəsti. XIX əsr.*



*Kişi üst geyimi. Məxmər arxalıq. XIX əsr.*



*Qadın üst geyimi. Məxmər arxalıq. XIX əsr.*



*Qadın gümüş kəməri. XIX əsr.*



*Qadın gümüş kəməri. XIX əsr.*



*Qadın gümüş kəməri. XIX əsr.*



*Kişi gümüş kəməri. XIX əsr.*



***Kişi gümüş kəməri. XIX əsr.***



*Kişi gümüş kəməri. XIX əsr.*



*Kişi gümüş kəməri. XIX əsr.*



*Qotaz. Rəngli toz muncuqla tikmə. Şərur-Yengicə kəndi. XIX əsr.*



*Araqçın. Tikmə üzərində iynədaban tikmə. Ordubad. XIX əsr.*



*Qırmızı rəngli qanovuz üzərində rəngli saplarla çinağı tikmə.*
*Ordubad. Əndəmic kəndi. XIX əsr.*



***Araqçın. XIX əsr.***



*Kişi baş geyimi. Fəs. XIX əsr.*



*Kişi baş geyimi. Şəbkülah. XIX əsr.*



*Kişi baş geyimi. Şəbkülah. XIX əsr.*



***Kişi ayaq geyimi. Göndən hazırlanmış çarıq. XIX əsr.***



*Kişi ayaq geyimi. Həsir çarıq. XIX əsr.*



*Kişi ayaqqabısı. Nəleyin. XIX əsr.*



*Kişi ayaq geyimi. XIX əsr.*

yaxa açılır. Lakin birinci növdən fərqli olaraq bu növ can köynəklərinin yaxası köbəli və çoxdüyməli olurdu. Üçüncü qrup can köynəklərinin boğaz hissəsi çox geniş açılır və yaxasız olurdu. Bəzi can köynəklərinin ətəyi düz, əsas hissəsində isə ətək geniş hazırlanırdı. Gen və uzun qol isə bütün növ can köynəkləri üçün səciyyəvi idi. Kişi alt geyimləri sırasında olan dizliklər sətin, yaxud atlasdan tikilirdi. Bu növ parçalardan Ordubad əhalisi daha geniş istifadə edirdi. Qış aylarında dizlik üçün qalın parça növləri seçilirdi. Üst geyim paltarları ilə müqayisədə alt paltarları sadə tikilirdi. Dizliyin orta hissəsinə əlavə parçalar tikilir, belinə isə köbə qoyulurdu. Dizliklərin belinə tumanbağı keçirilirdi.

Kişi üst geyimləri - üst köynəyi, arxalıq, çuxa, şalvar, yapıncı və kürkdən ibarət idi. Üst geyimləri içərisində üst köynəyi sadə formada tikilirdi. Qısa yaxalı üst köynəklərinə də təsadüf olunurdu. Bunların asan geyilməsi üçün kəsikləri geniş olur və düymələrlə bağlanırdı. Kişi üst geyimləri içərisində şalvar xüsusi ölçü və formada olurdu. Bu üst geyimi əsasən müxtəlif parçalardan tikilirdi. İsti fəsillərdə Naxçıvanda şalvarlar nisbətən nazik sapdan toxunmuş pambıq, qışda isə yun parçalardan tikilirdi. Şalvarlar gen balaqlı və dar balaqlı olurdu.

Kişi üst geyimləri içərisində əbalar xüsusi yer tuturdu. Əbaları əsasən din xadimləri və mollalar geyinirdilər. Bu geyim bir növ müasir plaşı xatırladırdı. Kişi üst köynəyi alt köynəyinin üstündən geyilirdi. Düz yaxası düymələrlə bağlanır və boğazı tuturdu. Mahuddan tikilən kişi üst geyimləri sırasında olan çuxa köynəyin üstündən geyilirdi. Naxçıvanda buna "küləcə" də deyirdilər. Çuxanın forması arxalığa bənzəməklə üç hissədən - gövdə, ətək və qoldan ibarət olurdu. Fərq orasındadır ki, çuxanın ətəkləri arxalıqla müqayisədə daha uzun idi. Naxçıvanda çuxanın iki növü - vəznəli və çərkəzi mövcud olmuşdur. Soyuq iqlim şəraitinə malik olan

Naxçıvanda çuxa çox qiymətli geyim növü idi. "Oyma" yaxalı çuxalar da Naxçıvan bölgəsi üçün xarakterik idi. Ətəklərinin formasına görə tədqiqatçılar çuxanı iki qrupa bölürlər. Naxçıvan çuxaları da buna əsasən iki yerə ayrılıb: büzməli və kahalı çuxalar. Büzməli çuxaların qabaq qanadları boyaboy biçilirdi. Bu növ çuxalardan əhalinin aşağı təbəqəsi daha çox istifadə edirdi. Gənclər qısa, qocalar isə uzun ətəkli çuxalar geyinirdilər. Qafqaz xalqları üçün səciyyəvi olan vəznəli çuxa növünü əsasən Naxçıvan bölgəsində cavanlar geyinirdilər.

"Qılıcı şal" adlanan yun parçadan hazırlanan arxalıq kişi üst geyimləri sırasına daxil olmaqla mürəkkəb geyim növü sayılır. İki hissədən - üst və ətəkdən ibarət olan arxalığın qabaq tərəfi açıq olurdu, düymə və çalkeçirlə bağlanırdı. Imkanlı admlar ikiqanadlı arxalıq geyinirdilər. Arxalığın tikilməsi üçün 4-6 metr parça materialı işlədilirdi. Arxalığın üzərindən gənclər qayış, kəmər, yaşlı adamlar isə qurşaq bağlayırdılar.

Sinə hissəsi açıq olan arxalıq dörd-beş düymə ilə düymələnirdi. Arxalıq bir qayda olaraq kürək, döş, ətək və qol hissədən ibarət olurdu. Arxalığın astarı da olurdu. Naxçıvanda arxalıqların astarları əksər hallarda ipək parçadan tikilirdi. Arxalıq əsasən çuxanın üstündən geyilirdi. Şal parçadan və məxmərdən tikilən bəzi arxalıqların döşündə "patrondaş" olurdu. Naxçıvanda saçaqlı qoyun yunundan hazırlanan yapıncılardan maldarlıqla məşğul olan şəxslər istifadə edirdilər. Bu qədim diyarda yapıncıya "çoban yapıncısı" da deyirdilər. Naxçıvanın Şərur bölgəsində isə yapıncı xalq arasında "xıllıx" da adlandırılırdı. Soyuq aylarda əhlinin əksər təbəqələri kürk geyinərdilər və ondan aranda olduğu kimi, dağ kəndlərində də istifadə edilirdi. Bu geyim əsasən dağ kəndlərində maldar elatların məişətində mühüm yer tuturdu.

Kişi üst geyimləri kompleksinə qurşaqlar da daxildir. Bunu

həm din xadimləri, həm də yaşlılar bağlayırdılar. Fərq onda idi ki, din xadimlərinin qurşaqları yaşıl rəngli materialdan, mülki vətəndaşların qurşaqları isə qara rəngli materialdan hazırlanırdı.

Naxçıvan əhalisinin kişi baş geyimlərini təsək (araqçın), buxara papağı, din xadimləri üçün isə əmmamə (çalma) təşkil edirdi. XIX əsrin əvvəllərinə aid məlumatlarda Naxçıvan əyalətində kişilərin konusvari qara qoyun dərisindən hazırlanan təpəsi kəsik papaq geydikləri qeyd olunur. Papağın təpəsinin isə çitdən olduğu da göstərilir. Bu qədim diyarda geniş yayılmış baş geyim növlərindən biri "buxara papaq" adlanırdı. Yaşlı adamların dediklərinə görə belə papaqların dərisi Orta Asiyadan - Buxaradan gətirilirdi. Sonralar isə yerli quzu dərisindən tikilən eyni formalı papaqlara da "buxara papaq" deyirdilər. Naxçıvanda ən geniş yayılmış papaq növü "börk" adlanan papaq idi. Bu, əsasən qara qoyun dərisindən tikilirdi. Türk xalqları üçün də səciyyəvi olan bu papaqların ən sadə növlərindən biri də çoban papağı olub. Naxçıvan əhalisinin əksər təbəqəsi uzun saçaqlı qoyun dərisindən tikilmiş bu növ papaqlardan istifadə edirdi. Bəzi bölgələrdə bu papağa "çöllü", "tərəkəmə", başqalarında isə "motal papaq" deyilirdi.

İkinci qrup baş geyimlərinə "araqçın", "başlıq", "sarıq" da daxildir. Araqçın ayrıca istifadə edilirdisə, təsək papağın altından geyilirdi. XIX əsrdə Naxçıvanda istehsal edilmiş araqçınlar xüsusi naxışlanırdı. Onların üst hissəsinin mərkəzinə çoxləçəkli gül təsvirləri işlənilir və kənarları dairəvi xətlərlə dövrələnirdi. Araqçınların üzərində nəbati təsvirlərlə yanaşı, həndəsi rəsmlər də xüsusi yer tuturdu. Gənclərin istifadə etdikləri araqçınlar qırmızı məxmərdən tikilir və bəzədilirdi. Sarıq kişi baş geyimi isə dördbucaqlı formada dəsmal və yaylıqdan hazırlanırdı. Üç künc dəsmalı başa sarıyırdılar. İsti aylarda ot biçini zamanı dördkünc dəsmalın künclərini düyünləyərək başa qoyurdular. Kişi baş geyimlərindən biri də



*Qönçəbəyim xanım.* *Rəssam R.Qədin*



*"Rəqs edirlər".* *Rəssam B.Kəngərli. 1914-cü il.*



*Kişi ayaq geyimi. Yun corab. XIX əsr.*



*Mis silsilə. XIX əsr.*



*Gümüş silsilə. XIX əsr.*



*Qızıl sinəbəndi. XIX əsr.*



*Varlı təbəqəyə məxsus kişi və qadın geyimləri. XIX əsr.*



*Kişi milli geyimi. XIX əsr.*



*Kişi baş geyimləri. XIX əsr.*

"molla papağı" adlandırılırdı. Şiş papaqlar növünə aid olan "molla papağı" Naxçıvanda kütləvi yayılmışdı. Bu baş geyim növündən və əmmamədən əsasən din xadimləri istifadə edir, baş geyimlərinin altından isə adətən təsək qoyulurdu. Naxçıvan təsəkləri bir-birindən formaca az fərqlənirdi. Kənarları milli naxışlarla bəzədilmiş təsəklərə araqçın da deyilirdi. Papağın altından geyilən digər baş geyimi isə başlıq adlandırılırdı.

Naxçıvan diyarında müxtəlif ayaq geyimləri də mövcud olmuşdur. XIX və XX əsrin əvvəllərində ayaq geyimləri içərisində çarıq və çust geniş yayılmışdır. Çarıqlar dabbaqxanada yaxşı aşılanmış dəridən, göndən, həm də ev şəraitində yarımfabrikat şəklində hazırlanmış dəridən, yaxud göndən tikilirdi. XIX əsrdə Naxçıvanda ayaq geyimləri hazırlamaq üçün yaxşı dəri istehsal edən dabbaqxanalar, başmaq hazırlanması ilə məşğul olan emalatxanalar və onun satışı ilə məşğul olan xüsusi başmaq dükanları fəaliyyət göstərirdi. Başmaqları başmaqçı adlanan ustalar hazırlayırdılar. Uzunboğaz çəkmələr də dəri-gön materialından hazırlanırdı. Bahalı və qiymətli olduğuna görə belə çəkmələrdən əsasən varlı təbəqə istifadə edirdi. Keçi dərisindən hazırlanan belə çəkmələrə xalq içərisində "xrom çəkmə" də deyirdilər.

Naxçıvanda corablar əldə sülü adlanan millərlə toxunurdu. Yay fəslində pambıqdan toxunmuş qısaboğazlı corablar, qış aylarında isə uzunboğazlı corablar geyilirdi. Qış aylarında əldə toxunmuş əlcəklərdən istifadə edilirdi. Əlcəyin baş barmaq yerliyi ayrıca, qalan barmaqlar isə bütöv toxunurdu. Adətən kişi əlcəkləri sadə ağ, yaxud qara rəngli yun ipdən hazırlanırdı. Uşaq və qadın əlcəkləri kişi əlcəklərindən naxışları ilə fərqlənirdi.

Tədqiqatçıların gəldikləri qənaətdən belə hesab olunur ki, Naxçıvan bölgəsində XIX əsrdə qadın geyimləri əsasən tafta, mahud, mitqal, bez, bəyaz qanavuz, darayı, zərbaft, atlas, xara,

məxmər, tirmə və s. adlanan parçalardan tikilirdi. Bu geyimlər isə iki qrupa - alt və üst geyimlərinə ayrılırdı. XIX əsrin əvvəllərinə aid mənbədə Naxçıvanda qadınların köynəyin üstündən qısa arxalıq geydikləri qeyd olunur. Alt geyimləri, can köynəkləri sadə çitdən, qış aylarında isə bambəzdən tikilirdi.

Alt tuman sadə formalı qədim geyim növüdür. XIX əsrdə Naxçıvanda "cüt balaq" tumanlardan geniş istifadə edilmişdir. Naxçıvanda belə tumanlara iki balaq şalvar deyilirdi.

Qadın üst geyimləri içərisində çəpkənlər də xüsusi yer tuturdu. Bunlar üst tumanla birlikdə kostyum kompleksi təşkil edirdi. Çəpkənlər sadə parçalardan olduğu kimi, qiymətli parçalardan da hazırlanırdı. Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılan çəpkənlər içərisində qırmızı parçadan tikilmiş çəpkən sadə olduğu qədər səliqəli və cəlbedicidir. Çəpkənin ətək və qolunun ağzına tikmə naxış vurulmuşdur. Kiçik cibləri ətəyin yaxınlığındadır, ciblər isə çox dayazdır. İkinci tipə daxil olan çəpkənlərin ətək hissəsi əvvəlkilərdən fərqlənir. Saya parçalardan tikilmiş çəpkənlərin əksəriyyəti düz yaxalı olur. Yaxası konusvari formada biçilmiş çəpkənlərdə ətək hər iki tərəfdən irəli çıxmışdır. Belə çəpkənlərin çiyni, yaxası, ətəyi və qollarının ağzı zəngin bəzədilirdi.

Üst qadın geyim kompleksinə daxil olan geyimlərdən biri də ləbbadədir. Ləbbadələr də çəpkən kimi çiyin geyim növünə daxildir. Onların çəpkənlərdən fərqi orasındadır ki, qolu geniş və qısa olur. Ləbbadələrin tikilməsində əsasən saya və güllü parçalardan istifadə edilmişdir. Bu geyim növünün yaxası, qollarının kənarları və ətəkləri sadə və mürəkkəb naxışlarla bəzədilirdi.

Küləcə qadın geyimi Naxçıvan qadınları üçün xarakterik olan geyim növlərindəndir. Onu qadın arxalığının xüsusi növü kimi də səciyyələndirmək olar. Bu geyim növü bahalı parçalardan - məxmər, tirmə şal, xara və zərxaradan tikilirdi. Küləcələrin yaxası,

qolları və ətəyi bəzədilirdi. Bu zaman zərli tikmə naxışlarla yanaşı muncuq və piləklərdən də istifadə edilirdi. XIX əsrdə Naxçıvanda həm uzun, həm də qısa küləcələr tikilirdi. Küləcələr belə qədər düz, ətəyi büzməli, yaxud geniş olurdu.

Beldən aşağı ətəklərinin formasına görə XIX əsr Naxçıvan küləcələri iki qrupa bölünür. Birinci qrupa ətəkləri trapes formalı və ön tərəfdən bir-birinin üstünü örtən küləcələr daxildir. İkinci qrupa daxil olan küləcələrin ətəyi ön hissədə birincidən fərqli olaraq genişlənmişdir. Uzun qollu belə küləcələrin yaxası, qollarının ağzı və ətəkləri zəngin naxışlarla bəzədilirdi. Üst qadın geyimləri içərisində arxalıq xüsusi yer tuturdu. Qadın arxalığı kişi arxalığından fərqli olaraq daha zərif hazırlanırdı. Məxmər, qanovuzdan tikilən arxalıqların beli dar olurdu və yaxası hər iki tərəfdən müxtəlif naxışlarla bəzədilirdi. XIX-XX əsrlərdə Naxçıvanda düzyaxa və oyma yaxalı qadın arxalıqları geniş yayılmışdır. Düzyaxa arxalıqların bəziləri həm də düz bədənli olurdu. Düzyaxa arxalıqlardan bəzilərinin ətəyi böyürdən hər iki tərəfdən çıxıntılıdır.

Naxçıvanda çox geniş yayılmış qolsuz üst qadın geyim növünə kürdü də daxildir. Əhali arasında "Xorasan kürdüsü" adlanan bu geyim növünün iki cibi olur, yaxası isə düz, ürəkvari formada biçilirdi. Bu növ geyimlərin də yaxası, ətəkləri, ciblərinin ağzı haşiyələnirdi. Kürdülərin çiyin hissələri hər iki tərəfdən haşiyəli tikmə naxışlarla bəzədilirdi.

Qadın baş geyimləri - çaşbənd, ləçək, yaylıq, örpək, rübənd, çalma, kəlağayı və s. növlərə ayrılır. Qadın baş geyim növü olan örpək zərif lif və tellərdən toxunan materiallarına və ölçülərinə görə müxtəlif olmuşdur. Ordubadda qadın örpəkləri arasında başlıca yer tutan kəlağayı istehsal olunurdu.

Rübəndlər Naxçıvanda geniş yayılmış baş geyimləri içərisində rübəndlər xüsusi yer tuturdu. Bu, əsasən İslam dininin tələb-

lərilə bağlı olmuşdur. Müsəlman xalqları arasında geniş yayılmış çalma baş geyimi ipək, yun, qumaş və ağ rəngli toxuma parçalardan olub, çox vaxt fəs və araqçının üstündən dolanırdı. Naxçıvanın zəngin qadın təbəqəsi çalmanın üstündən dingə də taxardılar. Naxçıvanda ipəkdən hazırlanan qadın baş geyimləri içərisində kəlağayı xüsusi yer tuturdu. Kəlağayının bir neçə növü olmuşdur. Əhalinin kasıb təbəqəsi içərisində "yeləni" tipli kəlağayılar geniş yayılmışdır. XIX əsrin ortalarından başlayaraq Naxçıvanda zəngin naxışlı Ordubad ipəyindən hazırlanmış kəlağayılar istehsal edilirdi. Bu tipli kəlağayılar basma və tikmə naxışlarla bəzədilirdi. Naxçıvan kələğayılarında isə daha çox stilistik naxışlardan istifadə olunurdu.

Naxçıvanın milli geyimləri şübhəsiz ki, min illər boyu təkamül yolu keçmişdir. Bu geyimlər maddi mədəniyyətin bütün başqa ünsürlərindən daha çox xalqın milli xüsusiyyətini əks etdirməklə yanaşı, sabit etnik əlamətlər sırasına daxildir.

Milli geyimlərin üzərinə, habelə məişət əşyalarına salınmış bəzək və naxışlar xalq sənətinin ən çox yayılmış növü sayılan tikmə üsulu ilə icra olunmuşdur. Icra üsuluna görə bir çox örnəyə bölünən tikmələrin Naxçıvanda geniş yayılanı aşağıdakılardır:

### Təkəldüz

Bu tikmə məişətdə ən çox işlənən tikmələrdən biridir. Təkəldüz tikmənin yerliyi əsasən qara və qırmızı mahuddan, yaxud müxtəlif rəngli məxmərdən ibarət olur. Yerliyin üzərində al-əlvan saplarla nəbatat və heyvanat aləmindən alınmış və stilizə edilmiş rəsmlər çəkilirdi.

Örtüklərə, xüsusən qadın üst paltarlarına, pərdələrə, balış üzərinə və xüsusi xalçalara təkəldüz üsulu ilə tikmə vurulurdu. Bu şeylərin üzərindəki təkəldüz tikmələrin kompozisiyası mürəkkəb olurdu.

### Saya

Bu tikmə təkəldüzə nisbətən həm kompozisiya, həm də

rəng etibarı ilə sadə və bəsit olur. Adətən saya tikmədə yerlik üzərinə birrəngli sap düzülür. Bu cür tikmələr əsasən gəzməli olub, geyimlərin müəyyən yerlərini, o cümlədən yaxa, ətək, cib kənarlarını bəzəyir. Saya tikmələr başlıca olaraq aran yerlərdə işlədilir.

### Gülbətin

Bu tikmə əsas etibarı ilə ağır və bahalı parçalar üzərində olur. Güləbətin üçün yerlik adətən tirmə parçalardır. Güləbətin tikmələrin sapı qızıl, gümüş və bürüncdən hazırlanır.

Güləbətin tikmələr arxalığın, çəpkən kimi bəzi geyimlərin, araqçın, saat qabı, daraq qabı və başqa məişət əşyalarının üzərində olur. Üfiqi, şaquli istiqamətlərdə düzülən qızıl və ya gümüş saplar stilizə olunmuş təsvirlərin içini doldurur. Güləbətin tikmə ustaları vaxtı ilə Naxçıvanda, Bakıda, Şamaxıda, Qubada, Şuşada və Təbrizdə çalışmışlar.

Qeyd etmək lazımdır ki, Azərbaycan tikmə sənəti örnəkləri içərisində güləbətin tikmələr keçmişdə xüsusilə geniş şöhrət tapmışdır.

Yüksək bədii xüsusiyyətlərə malik güləbətin tikmələrin adı M.P.Vaqifin və M.Y.Lermantovun əsərlərində çəkilir. Öz dövrünün qadın bəzək və geyimlərinə valeh olan Vaqif bu barədə belə yazır:

Barmağında xatəm, güşində tənə,
Gireh-gireh zülfün tökə gərdənə,
Güləbətin köynək, abı nimtənə,
Yaxasında qızıl düymə gərəkdir.

### Pilə

Bu tikmə böyük və kiçik ölçülü taxta və pəncərələr üçün düzəldilmiş pərdələrin üzərində işlənir. Pilə metal parçalarından dairəvi formada çox nazik kəsilib, xırda düymə kimi müxtəlif rəngli ipək parçalara bənd edilir. Rəngarəng effektlər verən bu pilələr bir-birinin yanına düzüldükdə, müxtəlif formalı nəbati və həndəsi

ornamentlər əmələ gətirir. Tikmə sənətimizin başqa sahələrinə nisbətən pilə az inkişaf etmişdir.

### Cülmə

Bu tikmə forma və texnikasına görə pilə tikməsinə oxşayır. Lakin buradakı pilə metaldan deyil, özü də yalnız ağ və ya başqa ipək sapla parçanın üzərinə düzülür. Cülmə tikməsi kiçik dairə formalarda şəbkülahı, araqçını və üst geyimlərinin yaxasını, cib və ətəklərin kənarlarını haşiyə kimi bəzəyir. Bu tikmə ilə müxtəlif formalarda nəbati və həndəsi naxışların kompozisiyaları qurulur. Cülmə tikməsinin əsas yeri Qarabağ, Təbriz, Naxçıvan, Şamaxı və Bakıdır.

### Muncuqlu

Bu tikmədə çox xırda və rəngarəng muncuqlardan istifadə olunur. Muncuqlu tikmə əldə etmək üçün muncuqlar xüsusi saplara düzülür, sonra isə pul kisəsinin, daraq qabının, yaxud müxtəlif kiçik torbaların və s. şeylərin üzərinə tikilib bərkidilir. Bu muncuqların rəngindən istifadə edib, cürbəcür naxışlar və təsvirlər yaratmaq mümkündür. Çox zaman bu muncuqlu əşyaların üzərində həndəsi formalı çiçəklər, güllər, yarpaqlar və s. təsvirlər yaradılır. Muncuqlar adətən ağ, qara, sarı, yaşıl və göy rəngdə olur. Belə tikmə üsulunda bəzən muncuq yerinə mirvaridən istifadə edilir. Muncuqlu tikmələrlə sənətkarlar ən çox Şuşa, Gəncə, Qazax, Naxçıvan, Bakı və Təbriz şəhərlərində məşğul olmuşlar.

Şairə Xurşidbanu Natəvan tərəfindən hazırlanmış fincan örtüyünü və Qarabağ xanı Pənah xana aid edilən əl ağacının üst bəzəyini belə muncuqlu bədii tikmələrə aid edə bilərik.

### Qurama

Bu rəngarəng parça tikələrinin müxtəlif formalarda yan-yana qoyularaq tikilməsindən əmələ gəlir. Bu işdə ən çox həndəsi rəsm formasından istifadə olunur.

### Oturma

Bu örnək tikməyə qondarma da deyilir. Bu tikmə

sənətimizin geniş yayılmış zəngin növlərindən biridir. Oturma tikmədə istənilən təsvir ayrıca olaraq parçalardan kəsilib başqa bir parça üzərinə qoyulur, sonra ətrafı saya tikişlə haşiyələnir. Oturma tikmələrdə tətbiq olunan bəzəklərin daha qabarıq və real görünməsi üçün kəsilmiş parçaların altına bəzən pambıq və ya kağız qoyulur. Bu cür tikmənin bir orijinal örnəyinə Abşeronda, Naxçıvanda, Gəncədə, Şəmkirdə və Qazaxda yaşayan sənətkarların əl işləmələrində rast gəlirik.

Tikmələrimizdə bəzək kompozisiyalarının əsasını nəbati və həndəsi ornamentlər təşkil etsə də burada ayrı-ayrı hallarda süjetə malik çox maraqlı kompozisiyalara da rast gəlirik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 07 fevral tarixli Sərəncamında deyilir: "Naxçıvanda toxuculuğun, boyaqçılığın və ipəkçiliyin inkişafı tarixən milli geyim mədəniyyətinin də formalaşmasına şərait yaratmışdır. Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir. Xalqın tarixini, etnoqrafik və bədii xüsusiyyətlərini özündə cəmləşdirən milli geyimlər və mətbəx nümunələri bu gün maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunur və inkişaf etdirilir. Təkrarsız milli yaradıcılığımızın nəticəsi olan Azərbaycan geyimlərini muzeylərimizdə, ayrı-ayrı tarixi teatr tamaşalarında və filmlərdə görə bilirik. Müxtəlif folklor ansambl və qrupları da bu gün milli geyimlərimizi yaşadır və təbliğ edirlər."

Muxtar Respublikamızı əhatə edən Ordubad,Culfa, Babək, Şahbuz, Kəngərli, Şərur, Sədərək bölgələrində, eləcə də Naxçıvan şəhərində fəaliyyət göstərən folklor kollektivlərinin üzvlərinə

hazırlanaraq verilən 287 dəst milli geyim paltarları geyim mədəniyyətimizin qorunub saxlanılaraq inkişaf etdirilməsi sahəsində dövlət qayğısının parlaq təzahürlərindəndir. Hazırda milli geyimlərimizin tədqiqi, təbliği və qorunub saxlanılması istiqamətində müəyyən işlər davam etdirilir.

## İstifadə olunan ədəbiyyat


1. Məmmədov D.C. XIX-XX əsrin əvvəllərində Naxçıvanın maddi mədəniyyəti. Tarixi-etnoqrafik tədqiqat. Bakı- "Elm" nəşriyyatı-2006.
2. Əfəndi Rasim S. Azərbaycan el sənəti. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı-1971.
3. Dünyamalıyeva S.S. Azərbaycan geyim mədəniyyəti tarixi. Bakı-2003.























ORDUBAD

















































Naxçıvan Muxtar Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**Naxçıvan milli geyimləri**

Rəyçi: AMEA-nın müxbir üzvü
Qadir Qədirzadə

Yığılmağa verilmiş 01.03.2010.
Çapa imzalanmış 10.03.2010.
Formatı 60X90 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Həcmi 11,5 ç.v.
Sifariş № 229. Tiraj 700 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.